Kim on dəfə, "Lə iləhə illallah vəhdəhu lə şərikə ləhu, ləhulmulku və ləhulhəmdu və huva alə kulli şeyin qadir" söylərsə

Əbu Əyyubdan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Kim on dəfə, "Lə iləhə illallah vəhdəhu lə şərikə ləhu, ləhulmulku və ləhulhəmdu və huva alə kulli şeyin qadir" söylərsə, İsmayıl nəslindən dörd qul azad etmiş kimi olar".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki: Kim "lə iləhə illallah, vahdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huva alə kulli şeyin qadir " deyərsə - mənası: "Allahdan başqa ibadətə layiq məbud yoxdur, O təkdir, şəriki yoxdur. Pak olan uca Allah mütləq hakimiyyət sahibidir, yalnız O, məhəbbətlə, və təzim olunaraq mədh və sənaya layiqdir. Onun üçün heç bir şey əngəl deyildir, O hər şeyə qadirdir. Kim bu əzəmətli zikri gün ərzində on dəfə söylərsə, İbrahim oğlu İsmayılın (Allahın onlara salamı olsun) soyundan dörd qul azad edən kəsin əcri qədər savab qazanar. Hədisdə İsmayılın züriyyəti (Allahın onun üzərinə salamı olsun) digərlərindən daha şərəfli olduğu üçün xüsusi qeyd edilmişdir.

https://sunnah.global/hadeeth/az/show/5517